# Reproduktiv **Sağlamlıq**



www.scfwca.gov.az

Buklet Almaniya Beynəlxalq Əməkdaşlıq
Təşkilatı tərəfindən maliyyələşdirilib.

# **Reproduktiv** sağlamlıq nədir?

**Reproduktiv sağlamlıq -insanın təhlükəsiz cinsi əlaqədə olmaq qabiliyyəti, öz nəsilartırma fəaliyyətini tam məsuliyyətli və könüllü tənzimlənməsidir.**

Reproduktiv sağlamlıq həm də fiziki, əqli və sosial durumun tam yaxşı olması deməkdir.

Reproduktiv sağlamlığın aspektləri aşağıdakılardır:

- Həmiləlik dövrünün və doğuşun təhlükəsizliyini təmin etmək;
- Sağlam uşaq dünyaya gətirmək və onun sağlamlığını təmin etmək;
- Nəsilartırmanın xoşagəlməz və təhlükəli təsirlər olmadan həyata keçirilməsi;
- Cinsi münasibətlərin harmonik olmasını, infeksiyaya tutulma qorxusu və arzuolunmaz hamiləliyin olmamasını təmin etmək.

## Reproduktiv sağlamlığa dair hüquqlar nə deməkdir?



Həm ailələr, həm də ayrı – ayrı şəxslər reproduktiv sağlamlıq hüququna malikdirlər.

Reproduktiv sağlamlıq hüquqları aşağıdakılardır:

- nə zaman və neçə uşaq sahibi olmaqdan ötrü azad və məsuliyyətli seçim etmək və bu seçim üçün lazımi məlumatı və biliyi əldə etmək imkanı;
- nəsilartırma haqqında qərarı heç bir şəxsin hüququnu tapdalamadan, zorakılıq olmadan və razılıqla qəbul etmək.

# Qadınlar üçün reproduktiv sağlamlıq sahəsində göstərilən xidmətlər

**Qadınlar üçün reproduktiv sağlamlıq sahəsində xidmətlərə daxildir:**

- ana sağlamlığının mühafizəsi, o cümlədən hamiləlik dövründə doğuşdan əvvəl qulluq, həkim nəzarəti altında doğuş və doğuşdan sonrakı dövrdə qulluq;
- ailə planlaşdırılması;
- cinsi yolla yoluxan xəstəliklər, reproduktiv yolların infeksiyalarının aşkar olunması və müalicəsi;
- sonsuzluğun qarşısının alınması;
- abort fəsadlarının müalicəsi;
- cinsi və qadınlara qarşı tətbiq olunan başqa zorakılıq formalarının qarşısının alınması və zorakılıq qurbanlarının müalicəsi;
- yuxarıda qeyd olunan xidmətlərlə bağlı məsləhətlər və maarifləndirmə.

# Ailə planlaşdırılması nədir?

Ailə planlaşdırılması nə vaxt və neçə uşağın olması üçün münasib vaxt və say seçimini qərara almaq deməkdir.

Doğum üçün ən münasib vaxt:

- qadın 20 və 35 yaş arasında olanda;
- qadın son 2-3 il ərzində hamilə olmayıbsa;
- qadının özü və uşağı üçün təhlükə törədə biləcək xəstəlik yoxdursa;
- ər- arvad uşağın olmasını arzu edirsə.



# Ailə planlaşdırılmasının üstünlükləri

## Sağlamlıq üçün:

- Ailə planlaşdırılması ana sağlamlığını yüksəldir, ana və uşaq ölümünün riskini azaldır.
- Doğuşların sayına aid – ana ölümü riski doğuşları çox olan qadınlarda daha yüksəkdir. Qanaxma, cift gəlişi kimi ağırlaşmaların nəticəsində baş verən ölümə 4 – dən çox doğuşu olan qadınlar arasında daha çox rast gəlmək olur. Toksikoza ilk və 4-cü doğuşdan sonrakı hamiləliklərdə daha çox rast gəlmək mümkündür.
- Ana yaşına aid  - ana ölümünün ən aşağı göstəriciləri 20-29 yaşlı analarda olur. Yaşın 18 – dən az olması hamiləlik dövründə yüksək qan təzyiqinin və qeyri sağlam körpənin doğulması riskini artırır.
- Ananın yaşı çoxaldıqca ölü doğuşların, abort fəsadlarının , körpə və uşaqların ölüm riski artır.
- Ürək qüsurları, qurdağızlıq, dovşandodaqlıq, Daun sindromu kimi anadangəlmə və doğuş qüsurları 35 yaşında olan qadınların uşaqlarında daha çox olur.
- Doğuşdan sonra 2 il fasilə gözləmədən doğulan uşaqların  2 il fasilədən sonra doğulan uşaqlara nisbətən ölüm ehtimalı 2 dəfə çox olur.
- Əgər qadın axırıncı doğuşdan 2 il keçməmiş hamilə qalarsa, belə hallarda hamiləlik özbaşına abort, ölü doğuş və ya az çəkili körpənin doğulması ilə nəticələnə bilər.

## Ailə üçün:

- Uşaqların yaşayış səviyyəsini yüksəldir. Onlar yaxşı təhsil almaq və daha yaxşı gələcək üçün imkan əldə edirlər.
- Analar uşaqlara qayğı göstərmək və onları tərbiyə etmək üçün daha çox vaxt əldə edirlər.

## Şəxslər üçün:

- Ananın evdən kənarda fəaliyyət göstərməsi üçün daha çox vaxtı olur və bununla öz istedadını inkişaf etdirmək imkanı əldə edir.
- Atanın pul qazanmaq naminə həddindən artıq işləməsi üçün keçirdiyi gərginlik azalır, beləliklə, ailə üçün daha çox vaxtı qalır.

## Cəmiyyət üçün:

- Ailə planlaşdırılması ölkənin iqtisadi inkişafına kömək edir.

Təbiidir ki, qadınlar və kişilər onların reproduktiv hüquqlarına görə istədikləri qədər uşağı ola bilər. Analıq qadının həyatında ən böyük sevincdir. Lakin planlaşdırılmamış hamiləlik onun üçün böyük problemlər yarada bilər. Bu problem yeniyetmələr və gənclər arasında özünü daha qabarıq göstərir.

**Nəsilartırmanı nizamlamaq 2 yolla aparılır:**

**1. Arzuolunmaz və vaxtsız hamiləliyin qarşısını kontraseptivlər vasitəsilə almaq;**

- Hormonal həblər;
- Baryer vasitələr və spermisidlər;
- Uşaqlıqdaxili vasitələr (spirallar);
- Təxirəsalınmaz kontrasepsiya;
- Kontrasepsiyanın cərrahi metodları;
- Təbii kontrasepsiya.

**2.Arzuolunmaz hamiləliyin süni yolla pozulması. (abort)**

Abortdan sonra qadının orqanizmi şok vəziyyətinə düşür – bütün orqanlar yeni həyata hazırlaşdığı vaxtda abort nəticəsində bu vəziyyət tam dəyişir. Dəyişikliklər endokrin və immun sistemində daha çox özünü göstərir. Belə ki, qaraciyərdə, böyrəklərdə disbalans, arterial təzyiqin tənzimlənməsində problemlər meydana çıxır. Beləliklə, orqanizmə infeksiyanın daxil olması və yayılması üçün ideal şərait yaranır. Abort nəticəsində ilk olaraq uşaqlıq artımlarında (borular, yumurtalıqlar) iltihabı proseslər inkişaf edir ki, bu da gələcəkdə uşaqlıq yolunun keçiriciliyinin pozulması və uşaqlıqdankənar hamiləliyin, sonsuzluğun yaranmasına səbəb olur. Sonsuzluq həm də yumurtalığın disfunksiyası nəticəsində yaranır ki, bu da abortdan sonra ən çox rast gəlinən ağırlaşmalardandır.

Hamiləliyin əvvəlində orqanizm tərəfindən hasil edilən maddələr abortdan sonra da qadının orqanizmində qalır və sinir sisteminin pozulmasına səbəb olur.

Nəticədə aşağıdakı problemlər yarana bilər:

- qanaxma;
- yerli və yayılmış infeksiya;
- travmalar (cinsi orqanların travması və perforiyası);
- kiçik çanaq orqanlarının iltihabi xəstəlikləri;
- sonsuzluq;
- gələcəkdə spontan abort təhlükəsi;
- uşaqlıqdankənar hamiləlik təhlükəsi;
- ana ölümü.

**Qadınlar abortlara, xüsusilə də selektiv abortlara üz tutmamalıdırlar. Selektiv abort - hamilə qadının dölün cinsiyyətini öyrəndikdən sonra, həyata keçirdiyi süni abortdur.**





# **Hamiləlik** və Doğuş

**Hamiləliyin əlamətləri:**

- Aybaşının dayanması;
- Sidik ifrazının tezləşməsi;
- Ürək bulanmaları;
- Ağızda tamın dəyişməsi və hər hansı bir yeməyə daha çox üstünlük verilməsi;
- Döş vəzilərinin həssaslığının artması və şişməsi;
- Yorğunluq əlamətləri;
- Uşaqlıq yolundan gələn ifrazatın artması.

Hamiləlik müddəti axırıncı aybaşının kəsildiyi birinci gündən başlayaraq hesablanır və 280 gün və ya 40 həftə davam edir.

Hamiləlik dövründə yaxşı qidalanmaq və tərkibi dəmirlə zəngin olan qidalar qəbul etmək vacibdir, spirtli içkilər içmək və narkotik maddələr qəbul etmək qadağandır. Anemiya hamiləlik vaxtı tez-tez rast gəlinən qan patologiyasıdır.

### Doğuş.

Doğuş normal fizioloji prosesdir. Bu hamiləliyin axırıncı fazasıdır. Doğuş ana orqanizmində gedən fizioloji dəyişikliklərlə başlayır doğuşun ilk əlamətləri:

- Qarında müntəzəm sancı (əvvəl 30 dəqiqədən bir, sonra isə 20 dəqiqədən bir).
- Maye və ya selik ifrazı.

Hamilə qadın bu əlamətlərdən birini özündə müşahidə edərsə, təcili doğum evinə müraciət etməlidir.

**Qadın reproduktiv sisteminin önəmli sirlərindən biri də hamilə qadınlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması, həkim tərfindən doğuşun tipinin düzgün seçiminə verilən qərardır.**

**Təbii doğuşa üstünlük verilməlidir.**

## Sonsuzluq

Uşaq doğmaq üçün məhsuldar dövr sayılan müddətə - bir il ərzində müntəzəm cinsi münasibətdə olub hamiləlikdən qorunmadan uşağa qalmamaq sonsuzluq hesab edilir. Sonsuzluq narahatlıq doğuran haldır və vaxtında, özü də düzgün müalicə olunduqda müsbət nəticə verə bilər.

Sonsuzluğun səbəbi həm qadında, həm kişidə, həm də hər ikisində ola bilər. Qadın və kişi sonsuzluğunun ən əsas səbəblərindən biri də cinsi yolla yoluxan xəstəliklərdir.

## Cinsi yolla ötürülən infeksiyalar

Bu infeksiyalar cinsi əlaqə zamanı, yalnız vaginal yolla deyil, həm də anal və oral yollarla da yayılır. Cinsi yolla ötürülən infeksiyalar təkcə cinsi yolla ötürülmür, yoluxmuş insanın qanı və məişət əşyaları yaxın təmas zamanı əhatədə olan insan üçün təhlükəlidir.

Sifilis, xlamidioz, trixomoniaz, honoreya, immun çatışmazlığı sindromu, genital herpes, kandidoz, kandiloma, mikoplazmoz, hepatitlər və s. geniş yayılmış infeksiyalardır və onların nəticələri təhlükəlidir.

Müalicə olunmadıqda orqanizmdə infeksiya mənbəyi qalır və o başqa sağlam insanlara yoluxa bilər. Bir neçə vaxtdan sonra isə xəstəlik ağırlaşır və xroniki hala keçir.

- Cinsi yolla ötürülən infeksiyalar üçün xarakterik olan əlamətlər:
- Cinsi orqanların selikli qişasında qızartı, şişkinlik, qaşınma, yandırma;
- Cinsi orqanlardan ifrazat;
- Sidik ifrazının tez – tez, ağrılı olması və ya çətinləşməsi;
- Cinsi akt zamanı ağrı

Cinsi yolla ötürülən infeksiyaların nəticəsində düşüklər, vaxtından əvvəl doğuş, ölüdoğulma, dölün anadangəlmə infeksiyası, sonsuzluq, uşaqlıdankənar hamiləlik, uşaqlıq boynu xərçəngi, immun catışmamazlığı virusu ilə yoluxma baş verə bilər. Çox vaxtı cinsi yolla keçən xəstəliklər özlərini biruzə vermir. Cinsi yolla keçən xəstəliklər aşağıdakı fəsadları yaradır.

- Sonsuzluq
- Uşaqlıdankənar hamiləlik
- Cinsi yolların və çanaq üzvlərinin xroniki infeksiyaları
- Ciddi infeksiya nəticəsində ölüm

# Azərbaycan Respublikasının Qanunvericiliyi

**Azərbaycan Respublikasının Konstitusiyası Maddə 41.-Sağlamlığın qorunması hüququ**

Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

**Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu**

**Maddə 16. Əhalinin sağlamlığının qorunması sahəsində ailənin hüquqları**

Dövlət ailə üzvlərinin sağlamlığını qorumaq qayğısını öz öhdəsinə götürür.

Hər bir vətəndaş ailənin planlaşdırılması, ətrafdakılar üçün təhlükə törədən xəstəliklərin mövcudluğu məsələlərinə və ailə-nikah münasibətlərinin tibbi-psixoloji cəhətlərinə dair, habelə nəsildə mümkün olan irsi xəstəliklərə yol verməmək məqsədilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz məsləhətlər almaq , müayinədən keçmək və dispanser nəzarətində olmaq hüququna malikdir.

**Maddə 17. Əhalinin sağlamlığının qorunması sahəsində hamilə qadınların və anaların hüquqları**

Hər bir qadın hamilələk dövründə, doğuş və

doğuşdan sonrakı dövrdə dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla pulsuz təmin olunur.

### Maddə 29. Süni mayalanma və embrionun implantasiyası

Yetkinlik yaşına çatan hər bir qadının süni mayalanma və ona embrionun implantasiyası hüququ vardır.

Süni mayalanma və embrionun implantasiyası ər və arvadın (tənha qadının) rəsmi razılığı olduqda aparılır. Süni mayalanma, embrionun implantasiyası, eləcə də donorun şəxsiyyəti həkim sirridir.

Qadın süni mayalanmanın, embrionun implantasiyasının tibbi və hüquqi nəticələri, tibbi-genetik müayinə, donorun milliyyəti, xarici görkəmi barədə məlumat almaq hüququna malikdir və bu məlumat tibbi müdaxilə aparan həkim tərəfindən verilir.

Qanunsuz süni mayalanmada və embrionun implantasiyasında təqsiri olan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

### Maddə 30. Hamiləliyin süni surətdə pozulması

Hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ vardır. Hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır. Sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22 həftəliyinədək aparıla bilər.

Tibbi göstərişlərə əsasən və qadının razılığı olduqda hamiləlik müddətindən asılı olmayaraq, süni surətdə pozula bilər.

Hamiləliyin süni surətdə pozulması dövlət və qeyri-dövlət tibb müəssisələrində ixtisaslı həkimlər tərəfindən aparılır.

Hamiləliyin süni surətdə pozulmasına dair tibbi və sosial göstərişlərin siyahıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

Həkim tərəfindən xəstəxanalardan və ya başqa tibb müəssisələrindən kənarda hamiləliyin süni surətdə pozulması qadağandır.

### Maddə 31-1. Qeysəriyyə kəsiyi əməliyyatı

Qeysəriyyə kəsiyi əməliyyatı dövlət və qeyri-dövlət tibb müəssisələrində aparılır.

Qeysəriyyə kəsiyi əməliyyatına dair tibbi əsaslar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Qeysəriyyə kəsiyi əməliyyatının qeyri-qanuni aparılmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

**2020-ci ilin mart ayında Nazirlər Kabinetinin Sərəncamı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib.**

Yeni təsdiq edilən Tədbirlər Planının əsas məqsədi uşaqların doğulanadək cins seçiminin qarşısının alınması və ailələrdə doğulan uşaqlar arasında qız uşağına nisbətən oğlan uşağına verilən üstünlüyün azaldılması, bu üstünlüyün kökündə dayanan gender stereotiplərinin aradan qaldırılmasıdır.

**Hər bir kişi və qadın valideyn olmaq üçün öz reproduktiv sağlamlığını qorumalıdır...**

Reproduktiv sağlamlıq – cəmiyyətin formalaşmasının əsas amillərindəndir. Buna görədə onun təmin olunmasına kömək etmək hər bir vətəndaşın vəzifəsidir.